# Uğurlu siyasətin əməli nəticələri

# 15 il–düşünülmüş islahatlar, müdrik qərarlar və sürətli inkişaf dövrü

***"Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

***Heydər Əliyev .***

Heydər Əliyev siyasi məktəbinin ən istedadlı yetirməsi, ulu öndərin layiqli davamçısı olan İl-



ham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən 15 il keçir. Bu dövr Azərbaycanın dinamik inkişafı, sürətlə modernləşməsi, dünyada nüfuz və söz sahibinə çevrilməsi ilə səciyyələnir.

Prezident İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində ölkə iqtisadiyyatı sürətlə və dinamik inkişaf mərhələsinə qədəm qoymuşdur.

Cənab İlham Əliyev ilk dəfə Prezident seçiləndə ölkədə 600 min yeni iş yerinin yaradılacağını vəd etmişdi. Həmin dövrdə bu rəqəm bəzilərinə xəyal kimi görünürdü. Ancaq illər keçdi, nəinki xəyal kimi görünənlər həyata keçdi, 15 ildə vəd ediləndən 3 dəfədən çox, 1 milyon 900 min yeni iş yeri yaradıldı.

Insanların işlə təmin olunması və digər sosial yönümlü tədbirlər nəticəsində 15 ildə ölkəmizdə yoxsulluq səviyyəsi 50 faizdən 5 faizə düşmüşdür.

Dünyada ən sürətli templə inkişaf edən ölkəmizin iqtisadiyyatı 15 ildə 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə artıb. Bu illər ərzində ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulub.

15 ildə aqrar sənaye kompleksində islahatlar geniş vüsət almışdır. Qeyri-neft məhsullarının ixracında mühüm yer tutan kənd təsərrüfatında ənənəvi sahələr ildən-ilə daha da inkişaf etdirilir. Bir vaxtlar Azərbaycanda geniş yayılmış və yüksək gəlirli üzümçülük, pambıqçılıq, baramaçılıq, tütünçülük yenidən kənd əhalisinin məşğulluğunun təminatı və rifahının yaxşılaşdırılmasında öz rolunu bərpa edir. Dövlət tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən dəstək ildən-ilə daha da güclənir. Dövlətin qayğısı nəticəsində aqrar sektorun geniş inkişaf yoluna çıxması nəticə-



sində ölkəmizdə ərzaq təhlükəsizliyi təmin olunub.

Ölkə başçısı cənab İlham Əliyev idarəetmədə şəffaflığı ölkənin gələcəyini müəyyən edən əsas faktorlardan hesab edir. "Şəffaflıq hər bir ölkənin gələcəyini müəyyən edən məsələdir. Çünki şəffaflıq olmadan biz heç bir islahatı apara bilmərik və nə iqtisadi, nə siyasi cəhətdən ölkə sürətlə inkişaf edə bilməz", deyən Prezident İlham Əliyev dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması, vətəndaşlarla dövlət strukturları arasında bürokratik manelərin aradan qaldırılması üçün aparılan islahatlar çərçivəsində Prezident Yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaratdı.



Ölkə Prezidentinin təşəbbüsü ilə "ASAN Xidmət" mərkəzləri fəaliyyətə başladı ki, bununla da dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi, elektron xidmətə keçid sürətləndi.

Prezident İlham Əliyevin xarici siyasətində ölkəmizin müstəqilliyini və suverenliyini daha da möhkəmlətmək məsələləri daha qabarıq nəzərə çarpır. Ölkə başçısı xarici siyasət kursunda tarazlaşdırılmış konsepsiyaya üstünlük verir. Bu siyasət nəticəsində beynəlxalq aləmdə ölkəmizin nüfuzu günü-gündən artır. Azərbaycan dünyanın nüfuzlu beynəlxalq təşkilatları və aparıcı dövlətləri tərəfindən etibarlı tərəfdaş kimi tanınır. Ölkəmiz regional məsələlərdə əsas söz sahibinə çevrilib.

Prezident İlham Əliyevin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş enerji siyasətini uğurla davam etdirməsi nəticəsində Azərbaycan bu sahədə əsas ölkələrdən biri hesab olunur.

Dövlətimizin başçısının enerji siyasəti ilə bağlı təşəbbüsləri nəticəsində reallaşan layihələr regional çərçivədən çıxaraq qlobal miqyas alıb. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinin başa çatması Azərbaycana külli miqdarda xarici investisiya axınına şərait yaradıb.

Hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatı sahəsində mühüm rol oynayır. Azərbaycanla Türkiyə arasında dünyanın ən böyük enerji layihələrindən olan TANAP layihəsinin icrasına başla-



nılıb. Dörd il əvvəl Azərbaycanın yeni tarixinə və enerji siyasətinə qızıl hərflərlə yazılan başqa möhtəşəm layihə–XXI əsrin qlobal enerji layihəsi adlandırılan Cənub Qaz Dəhlizinin təməli qoyuldu. 2017-ci ildə "Əsrin müqaviləsi" daha 50 il uzadıldı.

Ötən il Azərbaycanın təşəbbüsü ilə reallaşan Asiya və Avropa qitələrini birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib.

Prezident İlham Əliyevin rəhbərliyi altında regionların so-



sial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramları şəhərlə kənd arasındakı fərqin aradan qaldırılmasında mühüm rol oynayır. Bu proqramların reallaşması nəticəsində regionlarda insanların maddi rifahının yaxşılaşmasında əsas stimul olan on minlərlə yeni iş yerləri açılıb.

Regionlar bütün lazımi infrastrukturla təmin olunub. Ölkə başçısının tapşırığına əsasən Azərbaycan kəndlərinin başdan-başa qazla təmin olunması prosesi sürətlə davam edir. Artıq ölkə əhalisinin təxminən 95 faizə yaxını təbii qazdan istifadə edir. Kəndlərə içməli su xətləri çəkilir, yeni yollar salınır və ya əsaslı təmir olunur. Dövlət başçısının regionlara səfərləri, ictimaiyyətlə görüşləri ənənəvi hal alıb. Cənab İlham Əliyev regionlara səfərləri zamanı işlərin gedişi ilə şəxsən tanış olur, tövsiyə və tapşırıqlarını verir, mühüm sosial və istehsal xarakterli obyektlərin açılışında iştirak edir.

Dövlətin əsas atributlarından biri olan ordu eyni zamanda ölkə suverenliyinin qarantıdır. Müharibə şəraitində olan respublikamızda güclü ordunun təşkili ən zəruri məsələlərdən biridir. Bunu nəzərə alan ölkə başçısı, Ali Baş Komandan İlham Əliyev ən modern silahlarla təchiz olunmuş yüksək döyüş qabiliyyətinə malik ordu yaradılması istiqamətində davamlı və qətiyyətli iş aparır.

Bu gün Azərbaycanda dünya miqyasında ən güclü ordulardan biri formalaşıb. Ordumuz öz gücünü və döyüş qabiliyyətini 2016-cı ilin aprelində həm düşmənə, həm də dünyaya nümayiş etdirmişdir. Bu döyüşlərdə ordumuz Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının bir qismini,

(Ardı 3-cü səhifədə).